Aprel 2016

# PwC Azerbaijan Times

## 6 saylı Buraxılış

*Buraxılışın əsas xəbərləri:*

- **Ərzaq məhsullarına dair dövlət satınalma prosedurlarına dəyişiklik**
- **Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında Prezident Fərmanı**



pwc

### *Ərzaq məhsullarına dair dövlət satınalma prosedurlarına dəyişiklik*

Dövlət satınalmaları haqqında Qanununa edilən dəyişikliyə uyğun olaraq, dövlət müəssisə və təşkilatları tərəfindən ərzaq məhsullarının (dövlət taxıl fondu üçün alınan buğda istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Kənd Təsərrüfatı Nazirliyi ("Nazirlik") tərəfindən 11 Aprel 2016-cı ildə qəbul edilən Qaydalara müvafiq olaraq həyata keçirilməlidir. Bu Qaydaların məqsədi kənd təsərrüfatı məhsullarının istehsalını stimullaşdırmaq, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, dövlət vəsaitlərinin səmərəli istifadəsini təmin etmək, müxtəlif regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsinin prosedur və prinsiplərini, həmçinin bu məhsulların dəyərinin hesablanması ilə bağlı meyarları müəyyənləşdirməkdir.

Qaydalara müvafiq olaraq Nazirlik Nazirlər Kabineti tərəfindən müəyyən edilən qaydada Dövlət Müəssisə və Təşkilatlarından öz tələbatlarına uyğun olan məlumatı aldıqdan sonra, hər ilin avqust ayının 1-dək satın alınmaq üçün nəzərdə tutulan ərzaq məhsullarını, həmin məhsulların qiymətləri və satınalma şərtləri barədə məlumatı elektron portalda yerləşdirir. Bundan əlavə, Nazirlik satın alınması nəzərdə tutulan ərzaq məhsulları barədə məlumatı sentyabrın 1-dək elektron portalda yerləşdirməlidir. Satınalmada iştirak etmək istəyən, lakin məlumat bazasında öz adını aşkar etməyən istehsalçılar könüllü şəkildə Nazirliyə və ya ASAN Xidmət Mərkəzinə müraciət edə bilərlər.

Prezidentin Sərəncamı ilə yaradılan Ərzaq məhsullarının tədarükü və təchizatı Açıq Səhmdar Cəmiyyəti ərzaq məhsullarını istehsalçılardan və satıcılardan alacaq və dövlət müəssisə və təşkilatlarına təqdim edəcəkdir.

Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

# PwC Azerbaijan Times

## 6 saylı Buraxılış

### *Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında Prezident Fərmanı*

Prezident Fərman ilə Azərbaycan Respublikası Prezidenti yeni Mənzil İnşaatı Dövlət Agentliyi ("Agentlik") yaradıldı. Agentlik coxmənzilli binaların və digər tikinti layihələrinin inşasını həyata keçirən, vətəndaşları güzəştli qiymətli mənzillərlə təmin edən və dövlət büdcəsindən çoxmənzilli binaların tikintisinə ayrılan maliyyə vəsaitlərinin səmərəli istifadəsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

Agentliyin tabeliyində həmçinin Mənzil İnşaatı üzrə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti ("MİDA" MMC) də yaradılmalıdır. Faktiki olaraq MİDA MMC Dövlət Satınalmaları haqqında Qanunun müddəalarına müvafiq olaraq podratçıları müsabiqə yolu ilə seçən Dövlət mülkiyyətində olan qurum kimi çıxış etməlidir.

Binaların inşasını həyata keçirən podratçıların işləri üzrə ödənişlər MİDA, tikintinin mərhələləri və ödəniş şərtləri isə Agentlik tərəfindən müəyyənləşdiriləcəkdir. Agentlik podratçılarla bağlanılan müqavilədə əks olunan məbləğdə bank zamanəti tələb edir.